BƏKIR ÇOBANZADƏNIN FONETIKA SAHƏSINDƏ ELMI FƏALIYYƏTI

Həcər Hüseynova Emin qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, filologiya fakültəsi;
Azərbaycan, Bakı; E/mail: hacerhuseynova@mail.ru
https://orcid.org/0000-0002-3223-427X

Xülasə

Bəkir Çobanzadə XX əsr Azərbaycan və ümumtürk dilçiliyinin görkəmli simalarından biri kimi fonetika sahəsində mühüm elmi tədqiqatlar aparmışdır. Onun çalışmaları, əsasən, türkdilli xalqların fonetik sistemlərinin müqayisəli təhlili, səs dəyişmələri, sait və samitlərin fonetik təbiəti və funksional rolu üzərində cəmlənmişdir. B. Çobanzadə Azərbaycan dilinin fonetik xüsusiyyətlərini müəyyənləşdirmək, elmi əsasda izah vermək və ortaq türkcə ilə əlaqələrini araşdırmaqla türk dillərinin fonetik sistematikasının formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir. Onun "Azərbaycan dilinin fonetikası" və digər əsərləri müasir fonetika elminə dəyərli töhfə hesab olunur.

Bəkir Çobanzadənin elmi yaradıcılığında tarixi fonetika məsələləri olduqca böyük əhəmiyyət kəsb edir. Alimin səslərin yaranması və formalaşmasına dair fikirləri müasir dilimizin fonetikasının tədqiqi üçün çox əhəmiyyətlidir.

Bəkir Çobanzadə Azərbaycan türkcəsinin fonetik quruluşu ilə bağlı geniş tədqiqatlar aparmış, yaradıcılığı boyugəldiyi qənaətləri təkmilləşdirmişdir. "Türk-tatar lisaniyyatı-na mədxəl" əsərindən sonra yazdığı kitablarına baxanda aydın görünür ki, müəllifin fonetika ilə bağlı tədqiqləri digərlərinin fikirlərindən fərqli deyil, sadəcə, çağdaş dilçilik bu fikirləri daha da inkişaf etdirmişdir.

Açar sözlər: fonetika, türk dilləri, səs sistemləri, dilçilik, fonetik tədqiqatlar

Summary

Bekir Çobanzade, one of the prominent figures of 20th-century Azerbaijani and Turkic linguistics, made significant contributions to the field of phonetics. His research focused on comparative analysis of phonetic systems of Turkic languages, sound shifts, and the phonetic characteristics and functions of vowels and consonants. By identifying the phonetic features of the Azerbaijani language and connecting them with Common Turkic elements, Çobanzade played a vital role in shaping the phonetic systematization of Turkic languages. His works such as "Phonetics of the Azerbaijani Language" remain valuable sources in contemporary phonetic studies.

In the scientific work of Bekir Chobanzadeh, the issues of historical phonetics are of great importance. The scientist's ideas on the formation and formation of sounds are very important for the study of the phonetics of our modern language.

Bekir Chobanzadeh conducted extensive research on the phonetic structure of Azerbaijani Turkish, and his work improved the conclusions he had come up with. Looking at the books he wrote after the work "Türk-Tatar lisaniyyatı-na medkhal", it is clear that the author's research on phonetics is no different from the ideas of others, but modern linguistics has further developed these ideas.

Keywords: phonetics, Turkic languages, sound systems, linguistics, phonetic studies

Giriş

1926-cı ildə Bakıda keçirilmiç Birinci Türkoloji Qurultayın Azərbaycan nümayəndələrini xatırlayaq. Stenoqramda 17 Azərbaycan nümayəndəsinin adı var. Vaxtında dünyasını dəyişmiş Səmədağa Ağamalıoğludan başqa, Azərbaycan nümayəndələrinin hamısı, istisnasız olaraq 37-ci ilin Stalin repressiyalarınım qurbanı oldular. Bəziləri güllələndi, bəziləri sürgün edilib. Məhv edilmiş bu nümayəndələrin sırasında görkəmli türkoloq-dilçi alim, həmin quruhayın təşkilində və

keçirilməsində esas xidmət sahiblərindən biri olmuş professor Bəkir Vahab oğlu Çobanzadə də vardı.

Bəkir Çobanzadənin elmi fəaliyyəti çoxşaxəlidir. Dilçiliyin bir çox istiqamətlərində tədqiqatları var: 1) türkoloji tədqiqatlar, 2) ümumi dilçilik problemlərinə həsr etdiyi əsərlər; 3) dialektoloji tədqiqatlar; 4) terminoloji tədqiqatlar; 5) əlifba və qrafika məsələlərinə aid araşdırmalar; 6) ədəbiyyatşünaslığa aid əsərlər; 7) metodikaya aid əsərlər və s.

Dilimizin tarixinə həsr olunmuş araşdırmalara XX əsrin əvvəllərindən başlanılmış, bu sahədə çox görkəmli alimlərimiz və ziyalılarımız sanballı tədqiqat əsərləri yazmışlar. Belə alimlərdən biri də ömrünü türkçülüyə həsr etmiş və repressiya qurbanı olmuş B.Çobanzadədir. Alimin türkologiya sahəsindəki fəaliyyəti haqqında araşdırmalar geniş olmadığı kimi, dilimizin tarixinə dair görüşləri də elmi ictimaiyyətə yaxından məlum deyil.

Tədqiqat.

Dil tarixi məsələlərinin, xüsusilə də Azərbaycan dilçiliyi tarixində mühüm xidmətləri ilə yadda qalan görkəmli türkoloq, professor Bəkir Çobanzadənin elmi yaradıcılığında həmin məsələlərin müqayisəli şəkildə təhlilə cəlb edilməsi dilçiliyimiz üçün böyük əhəmiyyət daşıyır. Şərqin, o cümlədən türk dünyasının ilk professoru B.Çobanzadənin dilçiliklə, xüsusilə də dil tarixi ilə bağlı apardığı araşdırmalar çağdaş dövrümüzdə də aktuallığı ilə seçilir. Alimin dilimizin keşməkeşli tarixini özündə əks etdirən M.Füzuli, Ş.İ.Xətayi, M.F.Axundzadə və digər dahilərın əsərlərinin dilini tədqiqata cəlb etməsi, onlarla bağlı elmi fikirlər, mülahizələr bildirməsi mükəmməl elmi mahiyyət kəsb edir.

Bəkir Çobanzadənin elmi yaradıcılığında tarixi fonetika məsələləri olduqca böyük əhəmiyyət kəsb edir. Alimin səslərin yaranması və formalaşmasına dair fikirləri müasir dilimizin fonetikasının tədqiqi üçün çox əhəmiyyətlidir.

B.Çobanzadənin türk dillərinin fonetik sistemi haqqında tədqiqatları

Bəkir Çobanzadə Azərbaycan türkcəsinin fonetik quruluşu ilə bağlı geniş tədqiqatlar aparmış, yaradıcılığı boyugəldiyi qənaətləri təkmilləşdirmişdir. "Türk-tatar lisaniyyatı-na mədxəl" əsərindən sonra yazdığı kitablarına baxanda aydın görünür ki, müəllifin fonetika ilə bağlı tədqiqləri digərlərinin fikirlərindən fərqli deyil, sadəcə, çağdaş dilçilik bu fikirləri daha da inkişaf etdirmişdir.

B.Çobanzadənin istifadə etdiyi fonetik terminlər müasir terminlərdən kəskin fərqlənmir, o dövrdə terminoloji leksika tam formalaşmadığından alim bəzi terminləri paralel işlətmişdir: sövt//səs, sövtiyyat//fonetika, damaqönü ('incə') və damaqarxası ('qalın') saitlər, müdəvvər//şəfəvi ('dodaqlanan') və qeyri-müdəvvər//şəfəvi ('dodaqlanmayan') saitlər, ünlü ('cingiltili') samitələr, sağır ('kar') samitlər, ahəngi-əsvat//uyuşma qanunu və s.

Danışıq üzvləri ilə bağlı fikirləri

Bilirik ki, danışıq səslərinin yaranmasında danışıq üzvləri əsas rol oynayır. B.Çobanzadədən başlayaraq dilçiliyimizdə danışıq üzvləri, onların funksiyaları geniş tədqiq olunmuşdur. Ancaq B.Çobanzadə səslərin meydana gəlməsində fizioloji faktorlarla yanaşı, psixoloji məqamlardan da bəhs etmiş və bu hadisəni səslərin psixologiyası adlandırmışdır. Səslərin fiziologiyası ilə yanaşı, psixologiyasını da tədqiqə cəlb etmək XX əsrin əvvəllərində mühüm hadisə idi.

B.Çobanzadə yazırdı ki, danışıq səslərini anlamaq üçün onlara iki istiqamətdən baxmaq lazımdır: 1. Səslərin üzvi cəhəti, yəni kəlmələrin təşkil və tələffüzü üçün zəruri olan müəyyən üzvlər; 2. Bu üzvləri hərəkətə gətirən ruhi, daxili fəaliyyət və ya qabiliyyətimiz. Birinci istiqamət səslərin fiziologiyası, ikinci isə psixologiyası adlanır" [Çobanzadə, 2007. s.22].

Bəkir Çobanzadə danışıq səslərinin fiziologiyasından bəhs edərkən sosial mahiyyətini və kommunikativ rolunu aydınlaşdırmış, demişdir ki, təbiətdə müxtəlif səslər vardır, insanlar

arasında ünsiyyətə xidmət edən səslər isı bunlardan fərqlənir. Bunlar danışıq səsləridir və yalnız insanlara xasdır, insanları digər canlılardan fərqləndirən də elə budur.

Bəkir Çobanzadə danışıq səslərinin yaranmasında iştirak edən üzvləri dəqiq müəyyənləşdirmək üçün məsələyə problematik şəkildə yanaşmış, hər bir səsin formalaşmasında aktiv iştirak edən üzvlıri diqqətə çatdırmışdır [Çobanzadə, 2007. s.21]. Eyni zamanda göstərmişdir ki, bəzi orqanların fəaliyyətini, rolunu biz danışıq zamanı hiss etmirik. Onları xüsusi alətlər vasitəsilə müəyyənləşdirmək mümkündür. Bu məsələnin həlli isə dilçiliyimizdə olk dəfə eksperimental fonetikanın inkişafına başlanğıc vermişdir. O, əsas danışıq üzvləri kimi aşağıdakıları qeyd tmişdir: 1) damaq//damaq pərdəsi; 2) ağız boşluğu; 3) kiçik dil; 4) burun; 5) qırtlaq (‘Adəm alması’); 6) səs telləri; 7) qünnəçilik (burun səsi).

B.Çobanzadə bir səsin formalaşmasında minlərlə əzələ və sinirin iştirak etdiyini söyləyərək, bun (m)- səsini nümunə göstərmiş, bu səsin tələffüzündə on minədək sinirin iştirak etdiyini söyləmişdir [Çobanzadə, 2007. s.34].

Danışıq səslərinin təsnifi məsələləri

Dilçi-alim səsləri təsnif edərkən bəzən dilçilərin düzgün yolu tutmadığını-səslə hərfi fərqləndirə bilmədiklərini və bu vəziyyətin də dilin tədrisində çətinlik yaratdığını söyləmişdir. Onun təsnifi digərlərindən fərqlidir. Səslərin təsnifində fizioliji meyar əsasdır. B. Çobanzadə kimi onun tələbəsi Ə.Dəmirçizadə də bu meyarı əsas götürmüş, lakin akustik meyarı da əsas cəhərlərdən biri kimi qeyd etmiş, səsləri 3 qrupa ayırmışdır: a) fısıltılı səslər – səs telləri haltəbiidə istirahətdədir. Müəllifə görə, bu səslər insanın xəstəlik zamanı tələffüzündə müşahidə olunan səslərdir; b) sağır səslər; c) sədalı səslər [Çobanzadə, 2007. s.24].

“Türk-tatar lisaniyyatına mədxəl” əsərində müəllif danışıq səslərini sait və samitlərə ayırmışdır.

Sonra sait və samitləri qarışıq şəkildə danışıq üzvlərinin vəziyyətinə görə təsnif edilir:

I. Səs tellərinin vəziyyətinə görə:

a) fısıltılı səslər: səs telləri hərəkətsiz vəziyyətdədir;

b) sağır səslər: səs telləri bir qədər aralanmış və səs kanalı bir az darlaşmışdır;

c) sədalı səslər: səs telləri müxtəlif dərəcədə aralanmış və səs kanalı da daralmışdır.

II. Dilin vəziyyətinə görə:

a) saitələr – dildə maneəsiz səslər;

b) keçid səsləri (yaxud «sızqıran, islayan» səslər) – ağız boşluğunda dil vasitəsilə dar kanal yaranar və ağ çiyərlərdən gələn hava axını buradan keçər, titrəyiş pozular;

c) partlayıcı (indifai, expolsive) səslər – dil ağ ciyərlərdən gələn hava axınının qarşısını kəsər və sonra o hava ağızdan partlayaraq çıxar. Ancaq nədənsə, görkəmli alim bu təsni-

fatlara aid konkret nümunələr verməmişdir, ona görə də bölgüyə münasibət bildirmək də bir qədər bizim üçün çətinləşir. Lakin səsləri tərz şəklinə görə qruplaşdıran türkoloq budəfəki bölgüdə nümunələr təqdim etmişdir: a) dodaq səsləri: m, p, b,v, f; b) diş səsləri: t, d, n, s, z; c) damaq səsləri: y, h, l, g, r.

Bəkir Çobanzadənin sait səslərin bölgüsü ilə bağlı fikirləri, demək olar ki, eynilə bu gün də qalır, fərq yalnız terminlərdədir. Müqayisə üçün baxaq: «Saitələr tələffüz əsnasında dilin üfüqi cəhətdən aldığı vəziyyətə görə müxtəlif qruplara ayrılır: 1. damaqönü//xəfif saitələr – ə, e, i, ö, ü; 2. damaqarxası//səqil saitlər – o, u, a, ı» [Çobanzadə, 2007. s.86].

Dilin şaquli vəziyyətinə görə: a) dar saitlər//qapalı– ı, i, u, ü; b) geniş saitələr// açıq ö, o, e, ə, a [Çobanzadə, 2007. s.59].

Dodaqların vəziyyətinə görə: a) müdəvvər//dodaqlanan – o, u, ö, ü; b) qeyri-müdəvvər//didaqlanmayan – a, i, e, ə, ı [Çobanzadə, 2007. s.86].

Görkəmli türkoloq dilimizin fonetikası ilə bağlı maraqlı iki iddia irəli sürür:

“1.Türk mənşəli söz köklərinin çoxunun -k, -ak və ya -k, -ik ilə bitməsi;

2. Qədim dövrdən türklərin danışıq səslərini arxa damaqdan (boğazdan) tələffüz etmələri aşağıdakı iki səbəblə əlaqəlidir:

a) a > ä səslərinin yaxınlığı və əvəzlənməsi;

b) ziyalıların mədəni görünmək üçün danışıqda xüsusilə qalın səsləri incə qarşılığı ilə əvəz etməsi" [Çobanzadə, 2007. s.189].

Bəkir Çobanzadə fonetika ilə bağlı araşdırmalarında səs dəyişmələrindən, yəni indiki terminlə desək, fonetik hadisələrdən də bəhs edir. O, təmsil//hazırlıq ('assimilyasiya'), təhlil ('dissimilyasiya'), təbdil//metateza, dil qayması, səslərin qüvvətlənməsi kimi fonetik hadisələri izah etmişdir.

Dilçi alim təmsil, yəni assimilyasiya hadisəsini izah edərək yazır: «Bu hadisə hər lisandan ziyadə türk-tatar lisanlarında olduğuna "ahəngi-əsvat" təbir olunan hadisə ayrıca dəlildir. Buna elmi-lisanda "təmsil" (assimilyasiya) denilir» [Çobanzadə,2007. s.36]. Bəkir Çobanzadə uyuşma hadisəsini müasir dövrdə olduğu kimi, irəli və geri assimilyasiyaya ayırmaqla izah edir:

1. Proqressiv//mütərəqqi təmsil – müqəddəm bir səs müəxxər bir səsə təsir edər: anlar – annar, atdı – attı, başdan – baştan...

2. Reqressiv//mütərədd təmsil – müəxxər sövt müqəddəm sövtə təsir edərək onu kəndinə bənzədir, yaxud uydurur [Çobanzadə, 2007.s.36].

Bəkir Çobanzadə reqressiv, yəni geri assimilyasiyanı tarixi aspektdən izah edir. O, dilimizdə belə hadisələrin əsasən mürəkkəb sözlərdə rast gəlindiyini bildirir. Hətta bəzi sözlərin tarixi inkişafından danışarkən onları tərkib hissələrinə ayıran müəllif bu sözlərin zamanla fonetik birikmə nəticəsində sadələşdiyini də nəzəri-diqqətimizə çatdırır: "Biz hər səsi tələffüz edərkən ondan sonra gələn səsin tələffüzünə hazırlanırız və bunun üçün bu səsdən əvvəl gələn səsi hər zaman tamamilə ifadə edəməyiriz. Türk-tatar lisanlarında təsadüf etdiyimiz bu mürəkkəb sözlərdə bunu pək əyani görürüz. Məsələn, bu gün, dügün kibi sözlər, əsasən, iki qisimdən mürəkkəbdir: bu, yaxud du və gün. Bu kəlməsini tələffüz etməzdən əvvəl türk gün kəlməsinin tələffüzünə hazırlandığımızdan və [u] səsinin tələffüzü üçün lazım gələn vəziyyəti sövt üzvlərinə vermiş bulunduğundan bu deməyərək, ikinci saitəyi təkrar edərək bu da düzgün kəliməsinin "toy günü" demək olduğu hər kəsə məlumdur. Burada bir kaç sövti hadisə birdən zühura gəlmişsə də, biz yalnız ikisini alalım. Birisi sövti üzvlərimiz toy, yaxud bunun tədilindən hüsula gələn to parçasını tələffüz etmədən əvvəl artıq gün kəlməsinin tələffüzü hazırlanır... Bu surətlə toy gün yaxud tügün olması lazım gələn kəlmədən dügün hüsula gəlir" [Çobanzadə, 2007. s.36].

B.Çobanzadə koqnitiv dilçilik, psixolinqvistika məsələlərinin də Azərbaycan dilçiliyində tədqiqinə də başlanğıc vermiş, fonetik hadisələrə psixolinqvistik cəhətdən yanaşmışdır. Bəkir Çobanzadə "bənzəmə//uyuşmanın" səsin səs üzərində təsirini həm də psixoloji aspektdən izah edirdi: «Ona görə də bu fonetik hadisələrin səbəbi insanın tələffüz vaxtı qaldığı bəzi ruhi təsirlərdir» [Çobanzadə, 2007.s.45].

B.Çobanzadə dissimilyasiya hadisəsinin uyuşmaya nisbətən az müşahidə olduğunu qeyd etmişdir. "Mədxəl"də bu hadisəni təbdil adlandıran müəllif sonrakı əsərlərində təhlil hadisəsi adlandırır: "Bir sözdə bir-birinə bənzəyən səs olduğu zaman bunlardan birisi başqa səsə münqəlib olar. Bu hadisəyə təhlil təbir olunur. Türkcədə təmsilə nisbətən təhlilin çox az yeri vardır: zərəl, qaral, saral, isti ..." [Çobanzadə, 2007.s.62].

Tədqiqatçının vurğu haqqında izahları da dəqiqdir: düzgün qeyd olunur ki, türk dillərində vurğu sözün son hecası üzərinə düşür: "Hecanın qüvvəti bir dərəcədə olmaz; bir kəlmədə ən ziyadə qüvvətli tələffüz olunan hecaya urğulu və bu haqla da urğu təbir ediriz. Türktatar, hətta Ural-Altay lisanlarında urğu daima son hecada bulunur" [Çobanzadə, 2007.s.38].

Bəkir Çobanzadə dilimizin fonetik quruluşunun inkişaf tarixini nəzərə almış və əsaslı elmi araşdırmalar aparmışdır. Onun bu istiqamətdə zəngin elmi fikirləri bu gün də dilimizin tarixini araşdırmaq baxımından olduqca dəyərlidir.

Nəticə.

Bəkir Çobanzadənin fonetika sahəsində apardığı elmi fəaliyyət türk dillərinin sistematik öyrənilməsində və xüsusilə Azərbaycan dilinin fonetik strukturunun aydınlaşdırılmasında mühüm rol oynamışdır. Onun araşdırmaları yalnız dövrünün deyil, bu günümüzün də dilçilik elmi üçün

aktualdır. Çobanzadə fonetikanı, sadəcə, səslərin təsviri deyil, onların funksional və müqayisəli aspektdə izahını verən elmi sahə kimi inkişaf etdirmişdir. Bu baxımdan onun irsi müasir fonetika və ümumtürk dilçilik araşdırmaları üçün etibarlı elmi baza rolunu oynayır.

ƏDƏBİYYAT

1. Axundov, A. (1973). *Azərbaycan dilinin tarixi fonetikası*. Bakı: ADU
2. Axundov, A. (2006). *Ümumi dilçilik*. Bakı: Şərq-Qərb
3. Axundzadə, M.F. (2007). *Seçilmiş əsərləri*. 3 cilddə. Bakı: Şərq Qərb
4. Axundzadə, M.F. (2007). *Seçilmiş əsərləri:* 3 cilddə. 1 c.Bakı: Şərq-Qərb
5. Allahmanlı, M. (2022). *Bəkir Çobanzadə* (həyatı, mühiti və yaradıcılığı).Bakı: ADMİU-nun mətbəəsi
6. *Azərbaycan dilinin dialektoloji lüğəti:* A-Z. (2007). Red.: A.Axundov, Q.Kazımov və S.Behbudov. Bakı: Şərq-Qərb
7. Babayev A. (1998). *Bəkir Çobanzadə*. Bakı: Şərq-Qərb
8. Babayev, A. (2010). *Bəkir Çobanzadənin bir məqaləsi haqqında.* Bakı: BDU
9. Binnətova, A. (2012). *Klassiklərimiz B.Çobanzadənin araşdırmalarında* Симферополь: HATA
10. Çobanzadə B. (2007). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb
11. Çobanzadə B. (2007).*Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb
12. Çobanzadə B. (2007). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb
13. Çobanzadə B. (2007). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb